Salam,

Mənim adım Anonim. Universiteti keçən il bitirdim. İxtisasım sosial– psixologiyadır. Məndən maraqlarımı soruşdun. Kitablar, filmlər izləmək, sahəmlə bağlı araşdırmalar etməyi sevirəm.

Məktubunu oxudum. Əgər məktubumu oxudunsa, sən də bir addım irəli gedib, mənim istəyimi istəyirsən deyə vurğuladın cümlələrinin birində. Əslində bu layihəyə qoşulmağım elə o addımlardan birini atdığım anlamına gəlir.

İxtisasımdan dolayı mən müharibənin psixoloji təsirlərini, onların yaratdığı fəsadları dərk edə bilirəm bütün aydınlığı ilə. Ağrı, gözyaşı, acı, ölüm, ayrılıq, qorxu – Budur Müharibə!

Bilirəm nə sən, nə də mən günahkarıq ölkələrimizin düşmən olmasında. İki ölkə olaraq çox itkilər, qurbanlar vermişik. Gözəl günün birində Azərbaycanlı əsgərin hansısa erməni əsgərin başına güllə atmasını siz istəmədiyiniz kimi, eynilə bir erməni əsgərinin də bir gənc azərbaycanlı əsgərinin öldürməsini biz də istəmirik. Nə qədər yaxınlarımız, dostlarımız cəbhə bölgəsinə yaxın ərazilərdə xidmət edirlər, və hər gün onların ailələri üçün qorxu, narahatlıq duyğusu yaşanır. Bizi Sülh bir araya gətirir. Biz bu deviz altında birləşə bilərik. Çünki, sizin də, bizim də istədiyimiz məhz budur. İnsanların qorxusuz, rahat yasaması. Sağlam uşaqlar, xoşbəxt ailələr üçün, rahat həyat naminə. Bunun üçün səni anlaya bilirəm. Keçmiş müharibə dönəmlərində doğulmamışam amma oxuduğum kitablar, izlədiyim filmlər, araşdırdıqlarım, eşitdiklərim mənə həqiqətləri, müharibəni çılpaqlığı ilə təsvir edə bilir.

Babam ailəsini, doğmalarını müharibədə itirib və bu onun psixologiyasinda mənfi izlər buraxdı. Babam müharibədə yaşadığı sarsıdıcı olay nəticəsində qəddar bir insana çevrildi. İçində nifrət, qorxu, iztirabla böyüdü. Kimsəsiz, quru çörək və soyuq su ilə böyüdüyünü – dedi, ancaq yaşadım. Bir zaman, övladlarına və nəvələrinə müharibənin dəhşətlərini, nələr yaşadığını gözümüz önündə canlandırıb hiss edə biləcək şəkildə izahlandırdı. İnsanları içdən yaralayan, yaxınlarını əlindən alan– bunun adı müharibədir.

Mənim də bildiklərimə əsasən biz dost olmuşuq. Birgə çörək kəsmişik. Demək indi də ola bilərik. Tarixən çox şeylər yaşamışıq. İstər ərazi istərsə də insan qurbanları vermişik. Bilirəm çətindi bəlkə də, amma sadəcə düşmən mövqeyinə, müharibəyə fokuslanıb, insanların sülh istəyini unutmaq olmaz. Cəbhəyə yaxın rayonların birində oldum layihə ilə əlaqədar. Oradakı uşaqlarla görüşdük. Onların da müharibənin yaratdığı və yaşatdıqları ilə bağlı üstəlik müharibənin acı nəticələrinə dair fikirlərini dinlədim. Həyəcanın içində olduqlarından dolayı idi. Suallara dolğunluğu ilə izah verə bilmələri : doğmalarının yaşadıqlarından xəbərdar olması da öz təsirini buraxıb bu əsnada. Əgər sadəcə eşitdiklərin oxuduqlarına rəğmən müharibədən danışmaq çətindirsə bunu yaşayan həyəcan və qorxunun içində olub, doğmalarını itirən, insanların yaza biləcəkləri, daha təsirlidir. Bilirəm içimizdə sülh yaratmadan ətrafımıza bu devizi aşılamadan olmayacaq .Təhlükəli zonalarda yaşayanlar hər gün qorxu altında yaşayırlar. Müharibənin dəhşətini, həyəcanını yaşayan, övladları üçün narahat olan nə qədər analar var. Olanları dəyişə bilmərik. Amma bundan sonra o dəhşətlərin olmaması üçün edə biləcəklərimiz var.

Biz birlikdə güclüyük…

Sevgilərlə